# "ŞƏHİD ÜRƏYİNDƏN KEÇƏN MİSRALAR..."



*Nizami MƏMMƏDZADƏ*

***Bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq yazılmış poema***

**PROLOQ**

Mən şəhidəm, Anam məni görməyib,
İşğal altda olmuş torpaq azaddır!
Dərd-kədərdən telini də hörməyib -
O, bilmir ki, oğlu indi hardadır?

Şəhid Anasının dərdi-səri var,
Oğul dərdi, torpaq dərdi, el dərdi.
Ürəyini hey sıxanda düşmənlər -
Onunçün davaya oğul göndərdi.

Bu tale qisməti bölüb onunla,
Fəqət, məhv edilib düşmən oylağı.
Şəhidim ürəkdən yara alanda,
O, məhv edib solu, həm də ki, sağı!

Müqəddəs torpağı öpən əsgərim,
Son dəfə tətiyi çəkib cürətlə.
Düşmən yaralandı güllə gücüylə -
Qaçdı arxasına baxıb sürətlə!

Vətəni naminə ömrünü verən,
İgid şəhidlərim dönüb heykələ!
Düşməni Şuşada torpağa sərən,
Əsgərim şərəflə qayıtdı elə!

Şəhidlər, bilin ki, ölməyibsiniz!
Anamın telləri sizə yadigar!
Ay ana, şəhidlər unutmur səni,
Sənə al bayraqlı ZƏFƏR bağışlar!

Göz yaşım, bağışla, saxlayammıram,
Dizlərim damcıdan ah, yaralanıb!
Mənim bu əzaba içim göynəyir,
Ürək bütöv deyil, bax, paralanıb.

Şəhidim bayrağa bürünüb, yatıb -
Arzusu qəbirdən baxıb boylanır.
Bir Ana söykənib qəbir daşına,
Ağı deyib, oğul deyib hoylanır!

Zamanmı kövrəkdir, mənmi kövrəyəm,
Ay Ana, son günlər qocalmışam mən!
Amma düşünürəm, sənə gərəyəm,
Torpaqdan yapışıb ucalmışam mən!

Sənin gözlərindən kədər-qəm yağır,
Dünyanın ən ağır kədəri sənin.
Vətən göylərindən güllələr yağır,
Şəhid Anasısan doğma Vətənin!

Şəhid Anasıtək, yaşamaq üçün,
Ömür yollarından borc etməlisən!
Oğlunun qəbrinə gül-çiçək düzüb,
Orda ağac olub sən bitməlisən!

**Qəlbimin ən şirin sözü səndədir,
Hər layla çalanda şəhid oyanır.
Anacan, şəhidim torpaq altında -
Layla eşidəndə hey səni anır.**

**Şəhidəm, ürəkdə güllə yarası,
Gecə də, gündüz də heç yatammıram.
Qarşımda ilanın ağı-qarası -
Ona düşmən deyib güllə atıram!**

Anama söyləyin, dağlara getdi,
Dağlar mənim yurdum, əbədi yerim!
Getdim, bayrağımı dağa sancmağa!
Getdim, düşmənləri torpağa sərim!

Vətən göylərində Ulduz, Ay olsun!
Üzərlik yandırsın, həsrətlə Anam!
Arxamca atdığı su igidlərə,
Durmadan bəxş etsin güclü bir inam.

Eşitsin QƏLƏBƏ soraqlı xəbər,
Döyüşdə sevincim, bayrağım olsun!
Ümidim parlasın - sevinc sədası,
Fəxr ilə öpdüyüm torpağım olsun!

Getdim, ürəyimdə nifrət oyandı,
Getdim ki, düşməni, yadı öldürüm.
Getdim ki, Vətənin adı ucalsın,
Torpağımda yanan odu söndürüm!

Kövrəlmişəm, ömür gedir, gün keçir,
Torpağım, daşım da kövrəldir məni!
Kirpiklərim göz yaşımdan su içir,
Unuda bilmirəm Anam, dünəni!

Getdim, qisasımı qala qoymaram,
Mənim də ruhumun səsi burdadır!
Yanır içim-içim, ölləm, doymaram -
Mənim qəbir yerim bax, bu yurddadır!

Dağlarım çiçəkli-güllüdür, baxın -
Sinəsi yamyaşıl, tər bənövşəli!
Yal-yamacında gül, əskik olmayır,
Fəqət, çatmır gülə qız-gəlin əli!

Sevgimiz, eşqimiz daşa dönübdür,
Gül-çiçək gözümdə gözəl görünmür.
Əvvəlki gördüyün dağlar, ay Ana,
İndi gül örpəyə daha bürünmür.

Yenidən gül üzlü Vətən olacaq,
Hər dağda əsəcək vüqarlı bayraq!
Anamın gözündə görünən sevinc,
Müqəddəs baxışla suvarılacaq!

Hər çiçək üstündə əsdik, vuruşduq,
Dağların döşündə qəbirlər qazdıq.
Bir şəhid ölümü bizə yol verdi,
Bəzən qaranlıqda yolları azdıq.

Həsrətdir bu dağlar gözəl gülüşə,
Ceyranlar mələşir, dağlar ağlayır.
Sinəsində qarın rəngi saralıb,
Qoşa palıd sinəsini dağlayır.

Anama söyləyin, dağlara getdi,
Getdim, igidlərin olduğu yerə!
Getdim ki, üzümü sürtəm torpağa,
Getdim, şəhidimin qaldığı yerə!

Amandı deməyin, dövran dəyişib -
Deyin ki, igidlər hələ vuruşur!
Deyin ki, onun da bir şair oğlu,
Igid şəhid üçün nəğmələr qoşur!

Nəğmə mənim sevinc səsim, harayım!
Torpağa sarılıb, öpmüşəm, bilin!
Ürəkdə arzular çoxalıb daha,
Mən igid oğluyam şahanə elin!

Hələ şəhid kimi söz deyəmmirəm,
Min baxış getdiyim yollara baxır.
Uca zirvələrdə səngər qurmuşam,
Hər əsgər qardaşım od olub çaxır!

* * *

Anam layla, Atam layla, şəhidim!
Hər sözümdə sabahıma inam var.
Ana, layla çal - hər yatan şəhidim,
Fəxr edir ki, layla çalan Anam var.

Şəhidəm, Analar! Qəbrimin üstə,
Gəlin, asta-asta laylamı çalın!
Mən südəmər nadinc bir uşağam ki,
Həsrətəm, bir gecə mənimlə qalın!

* * *

**QƏLƏBƏ naminə dağlar aşmışam,
Həm oxum, həm gülləm cəsarətimdir.
Bir Vətən, bir Anam, bir də Sevgilim,
Bir addım TORPAĞIM məhəbbətimdir.**

Ölümün üzünə baxa bilmişəm,
Şəhidim, bağışla Vətən sağ olsun!
Sənin igidliyin, qəhrəmanlığın -
Qoymaz ürəklərə kədər-qəm dolsun!

Deyirlər, igidlər TORPAQ uğrunda,
Vuruşursa, deməli QƏLƏBƏ bizim!
Vətənim azaddır, hər ucalıqda -
Şəhidim, görünür pozulmaz izin!

Düşməni tarimar etdin, ay oğul!
Vətən kəlmələri sənə şirindir!
Döyüşdə qoçaq ol, yağı qaçacaq,
Düşünmə, sən ona qılıncı endir!

Ordumun gücünə hey inanmışam,
Əsgərin aldığı torpaqlar bizim.
Hələki dağılan Ata evimdə,
Körpəlik çağımdan qalıbdır izim.

Səadət kəlməsi mənə xoş gəlir,
Bilirəm, sevinci mütləq görəcəm!
Bizə hücum edən namərd düşməni,
Qolumun gücüylə yerə sərəcəm!

Mənim dolaşdığım Ana torpağım,
Sabaha çağırır bizləri hərdən.
Qarabağ bizimdir, bilin biryolluq!
Onu bəxş edibdir bizlərə Vətən!

* * *

Sən ey namərd düşmən, qaniçən zalım,
Ağbirçək Anama aman vermədin!
Sən bizi görəntək it kimi qaçdın,
Sən hələ bizdəki gücü görmədin!

Səni birdəfəlik dağıdaram mən!
Sən necə amansız oldun qazimə?
Qəlbimdə şəhidin naləsi qalıb,
Sən necə baxırsan mənim üzümə?

Yandı qəlbindəki mənfur niyyətlər,
Qarabağ arzun da gözündə qaldı!
Ali Baş Komandan: - "Hücuma keçin!",
Deyəntək igidlər torpağı aldı!

Şəhidim döyüşdü son qanınatək,
Hər düşmən başına güllə yağdırdı.
Şuşa qalasına əl vuran yağı,
İgidin oxuyla öldü - bağırdı!

Düşmənlər məəttəl qaldı döyüşdə,
İgidim bir tarix yazdı Şuşada.
Əlini Tanrıya uzadan yağı,
Yalvardı verməsin onu da bada!

Allahım bilir ki, məndə qeyrət var,
Döyüşdə heç zaman dayanmaram mən.
Torpağa əbədi məhəbbətim var -
O məni səsləyir sevindiyindən!

Bizi kimlər yazdı şanlı tarixə,
Qələmlə, qan ilə yazıldı adlar.
Düşünə bilmirəm, bizə kim verdi -
Uçmaqçün zirvəyə qoşa qanadlar!

Vətən daşımız da bizə güc verdi,
Hər torpaq uğrunda vətəndaş olduq!
Baxın, ona görə, cəsarətliyik -
Vətənçün güclənib, torpağı aldıq!

Mənə şəhid adı verəndə bildim,
Qan töküb, Vətənçün mən qurban oldum!
Yazılıb sinəmə könül dəftəri -
Hər sözü, hər sətri tarixdə qaldı.

Şəhid başdaşını görəndə Ana,
Diliylə bayatı, şeir söyləyir.
Baxıb şəhidimin şəklinə hər an,
Göz yaşıyla ağı deyir, kövrəlir.

Ürəyindən keçən arzu, ümidlər,
Onu hey sarsıdır, daha dözməyir.
Oğul başdaşını görəndə Ana,
Sanki bu dünyadan daha bezməyir.

**Yaşamaq istəyir onunla birgə,
Əlində gül-çiçək ziyarət edir.
Oğlunun ətrini çiçəkdən alan,
Ana tənha qalıb, onu yad edir.**

Vətən səmasını oğulsuz görən,
Bir tənha Ananın ürəyi sönür.
Dərd-qəmi çəkməkdən Ana da fəqət,
Bayraqla oğlunun yanına dönür.

Ölüm arzulayır, özünə Ana,
Gözəl arzuların dalınca qaçmır.
Daha qalıbdır o, hey yana-yana -
Göylərə boylanır, oğulu uçmur!

Əlini göylərə uzadıb hərdən,
İndi şəhid qəbrində dualar qalır.
Allahım eşidir, dardadır Vətən,
Şəhid qisasını PUALAR alır.

* * *

Bu torpaq uğrunda döyüşdüm, Ana!
Min ağı söylədi şip-şirin dillər!
Bəzəndi tabutum al bayrağımla,
Məni qəbrə qoyub ağladı ellər!

Dolandı başıma yarım-sevgilim,
Başdaşım Vətənə bayrağım oldu!
Gördüm ki, öləndə kəfənim üstə,
Tökülən bir ovuc torpağım oldu!

Şəhidimin qanı axıb torpağa,
Bu dəhşətə torpağım da inanmır.
Dünyam mənə, mən dünyama möhtacıq -
Qəlbimdə bu közün odu da yanmır!

Söhbətimin hər sözündə inam var,
Ürəyim səksəkə içində yanır.
Sən gedən yolları Anam da gedir,
O, səni hardasa gəzir, hey anır.

Bu "Anım Günü" də tarixi gündür,
Bəzən bu günlərdə sevinc səslənir.
Bilinmir dərdimiz, "Of!" deyən zaman,
Ürəkdə dərd-kədər hərdən gizlənir.

Ötən günlərimiz bizə nə deyir,
Ürəkdə pıçıltı sancı oyadır.
"Ah!" deyən dilimiz Vətən naminə,
O, sevgi eşqiylə min gücə qadir!

* * *

Bu torpaq müqəddəs, bu torpaq həyat,
Gələcək nəsilə ərmağan verin!
Bu torpaq üstündə əkdiyim gülün -
Bir qönçə gülünü siz mənə dərin!

Dərin, o gülləri arzularımtək,
Dərin, bayrağıma oxşar gülü siz!
Deyin, qəbrim üstə bayatı, şeir,
Gəlsin göz yaşıyla, bir gülüzlü qız!

Döyüş yollarında neçə igidlər,
Vətən nəğməsini qanla yazdılar.
Cərgəli dağların döşündə durub,
Vətənçün ölməyi canla yazdılar.

Ürəyim döyünür arzu, ümidlə,
Şəhid nəğmələri mənə güc verir!
Ən simuzər sözüm-Torpağım Azad!
Əsgərim yağını, torpağa sərir!

Əsgərim - QƏLƏBƏ! Əzmim - döyüşüm -
Mənim daim şöhrət, səadətimdir!
Onun varlığından sevinirəm mən,
Döyüşə güc verən mətanətimdir!

Ay Ana, bilki, mən yorulmamışam,
Düşməni məhv edib, hey güclənirəm.
Bu niyyətlə uca dağı aşmışam,
Bilki, qarşı dağda duran əsgərəm!

Ümidi, arzusu torpağa bağlı,
Vətənə QƏLƏBƏ dilədi əsgər.
Gecə də, gündüz də keşikdə duran,
Silahı əlində igid, hünərvər!

**İgid əsgərimin varlığı hər an -
Yağıda min qorxu-hürkü yaratdı.
Gözünü düşmənə zilləyib birdən,
Nişangah eyləyib gülləni atdı.**

**Aldı nişangaha yağı başını,
Tətiyi basanda o yerə batdı.
Hər an əsgərimə meydan oxuyan,
Qanı düşmən susub yerində yatdı.**

***(Davamı 15-ci səhifədə)***

*(Əvvəli 14-cü səhifədə)*

* * *

Ürəyim döyünür QƏLƏBƏ üçün,
Varlığım - şöhrətim, gücüm - şücaət!
Sən, ey Vətənimin şanlı əsgəri,
Mən səndən alıram sevgi, məhəbbət!

Kaş, adlar içində adım çəkilə!
Könlümün bağçası meyvə gətirsin!
Sevirəm mən səni, ey gözəl Vətən!
Sən mənə çiçəksən, mənə ətirsən!

Vətənə gəldim ki, səni çox sevim,
Sinəmdə arzular coşub, hey daşsın!
Kükrəyib coşmağa oğul istərəm,
Qarşımda düşmənlər tülkütək qaçsın!

"Könlümün sevgili, məhbubu mənim!",
Sənə oğul gərək, sənə tən gərək!
Sənin gələcəyin parlaqdır, ağdır -
QƏLƏBƏ soraqlı bircə gün gərək!

Mənim ürəyimə əbədi sevgi,
Min ilham bəxş etdi tarixi Vətən!
Ay ana, hələ mən, bil ölməmişəm,
Səsim ucalacaq dik zirvələrdən.

Düşməni məhv edən Bozat şütüyür,
Bir damla qanımın qiyməti vardır.
Qarlı dağlarımda düşmən üşüyür,
Onun durduğu yer, yamanca dardır.

* * *

Bir yağı əliylə baba-nənələr,
Ormanda soyuqdan donub öldülər.
Düşməndən qaçaraq yurda tələsən,
Nəvələr acından orda qaldılar.

Vəhşi düşmənlər də onları tutub,
Ağaca sarıyıb, əzab verdilər.
Anadan ayırıb bir loxma çörək,
Hətta, su vermədən yerə sərdilər.

Şəhiddən yadigar qalan misralar,
Məni də sızıldar, ay Ana, neylim?
Torpaqda yatsam da, ölməmişəm mən,
Bilki, bir Vətənlə, sənədir meylim!

Namərd kəslər, mərd insana qıyarmı,
Mübariztək mərdə qəbir qazıldı!
Düşməni hey qaçan gördüm torpaqdan,
Qarı düşmən! Sənə tarix yazıldı!

Ömür keçdi, gün dolandı, Ay doğdu,
Zaman bizə Qarabağı aldırdı.
O cəsur əsgərim, topsuz-tüfəngsiz,
Bayrağımı zirvələrə qaldırdı.

Tale bizə möhlət verdi, yaşadıq,
Gözlərimiz bu dünyada mərd gördü.
Zalım gördük, namərd gördük, yaşadıq,
Yorulmadan 30 ildə dərd gördük.

Dərdimizə məlhəm qoydu "Yumruğ"um,
Hər ağrının dərmanıdır torpağım!
Sevindik, düşməni məhv edib əsgər,
Əlində ucalan bayrağa baxın!

Ölməz əsgər, ölməz igid qardaşım,
Hər daşı, qayanı aşıb keçərəm!
Mən Şuşa yolundan dönmərəm geri,
"İsa bulağı"ndan su da içərəm!

Qarşımıza düşmən çıxdı dağlarda,
Döyüşdə biz çətin anlar yaşadıq.
Saqqallını, saqqalsızı məhv etdik,
QƏLƏBƏ tonqalı yandı, şadlandıq!

Bayrağım Şuşada göyə ucaldı,
Hər ötən dəqiqə sevinc gətirdi.
Dəmir "Yumruğum" da çoşdu, çağladı,
Əsgərim Şuşaya AZADLIQ verdi!

Uğursuz gədələr, bizə yovuşmaz,
Onlara Anası su da atmayıb.
Dağlarda hey süzən qartallarıq biz,
Bir qara qarğa da bizə çatmayıb.

Yağının yolunda sal qayalartək,
Şəhidin başdaşı dayanıb gecə!
Ömrümün zamanı ötən Anayam,
Dolaşır qəlbimdə söz incə-incə!

Hər günüm, hər ayım keçir dağlarda,
Səmada hey süzüb, uçan bir quşam.
Gecə də, gündüz də keçən ayları,
Günləri hey sayan Ana olmuşam!

Saçlarım ağarıb, dözə bilmirəm,
Tənhalıq qəlbimə dağlar verir.
Gəlmişəm, qəbrini ziyarət edim,
Mənə təskinliyi bu dağlar verir!

Haqqı, ədaləti el unutmadı,
Torpağım uğrunda onu sınadı.
Yadından çıxmadı yağının adı,
O namərd düşməni Anam qınadı.

Şəhidin ölümü əzab-əziyyət,
Bir Ana dilində dua var Haqqa!
Fəqət, şəhidimin üzü güləcək,
Ana laylasıyla yatsa torpaqda!

Hər ötən dəqiqə, keçən bir saat,
Düşməni qorxudan Cəhənnəm yazır.
Dumanda, çiskində ölür, dirilir,
O birdən səksənib yolunu azır!

Düşmənin bağrını yaran əsgərim,
Yenilməz igiddir, ölməz qəhrəman!
O, bilir ki, döyüşlər "Dəmir Yumruq"la,
Vətən tarixinə yazılır hər an!

Bayrağım ucalıb, göylərə sarı,
Yaşılım, həm alım bilinir daha!
Ürəkdə dualar Haqqı səsləyir,
Kədərim, qəmim də silinir daha!

Ürəyim təmizdir - kağız kimi ağ,
Oraya yenidən sevinc yazıram.
Yollarım Şuşaya uzanır, baxın!
Yamyaşıl ormanda yenə azıram!

Gözəllik tacıdır Şuşamın özü,
VƏTƏN oğulları tikibdir indi!
Burda şairlər də qoşma yazıblar,
Ay oğul, ucalan evlər sənind!

Şuşada gözümə tarix görünür,
Natəvanın sözü - şeir, qəzəldir!
Bu şəhər Xanların tarixi yurdu,
Hər küçə, hər bina, hər daş gözəldir!

Bu torpaq yenidən canlanır, baxın
Bir dəstə çiçəyim bayrağa bənzər.
Burda babalarım çiçək əkiblər,
O, daim tarixi torpağa bənzər!

Sinəmə sıxmışam gülü, çiçəyi,
Qaçmışam yolların ayrıcınadək!
Torpağım azaddır, ey Vətən oğlu,
Gəl səni bağrıma basım çiçəktək!

Könlüm qəmli olmaz, torpaq azadsa,
Bir ovuc torpaqda gör nə hikmət var!
Torpağım mənimsə, deməki gücüm var,
Onda mənə sevinc, səadət çatar!

Uca bir zirvənin başında duran,
O bayraq bizimdir, enməz bir daha!
Vətən torpağında sevgi yaradan,
Aydındır gücümüz Uca Allaha!

# "ŞƏHİD ÜRƏYİNDƏN KEÇƏN MİSRALAR..."

Az qaldı gözünə qaranlıq çökə,
Ümidi kəsildi, dura bilmədi.
Babam da yerində yaralı halda -
Gözündən süzülən yaşı silmədi.

Bir kimsə yoxuydu, əlindən tuta,
Namərd düşmən ona zərbələr vurdu.
Bilmədi hardadı, çovğunlu qarda -
Əsgərim döyüşçün bir səngər qurdu!

Qardaş da, Bacı da Ataya həsrət,
Gündüzlər, gecələr heç yatmadılar.
Anaya məhəbbət ucundan onlar,
Vətənçün bir yana heç getmədilər.

Torpağımı sevən oğullarım var,
Döyüşdə sinəsi açıqdır hər an!
Sevgili Vətənə məhəbbəti var,
Onu heç unutmur Can Azərbaycan!

Aşanda yamacı qar yağa-yağa,
Güllələr qarı da ona sovurdu!
Əsgərim, zabitim əmrə müntəzəm,
İgid duruşuyla namərd qovurdu!

Düşmən Anaları bizə qarğadı,
Fəqət, mənim Anam mərhəmətlidir.
Döyüşdə biz qartal, düşmən qarğadır,
Mənim əsgərimsə mətanətlidir!

Mən, Ana Vətənin igid pələngi,
Ey qəlbim, döyün sən mətin, hünərvər!
Çiynimdə gəzdirdim topu-tüfəngi,
Mən, hər an düşmənlə döyüşən əsgər!

Səsimin harayı düşmən yanıltdı,
Dərədə yolunu gedə bilmədi.
Qanlı düşmən gücünü də itirdi,
Əliyalın, bizdən qorxub gəlmədi.

O azğın düşmənlər qaçıb, yox oldu,
Bir güllə səsindən yanıldı birdən.
Huşunu itirib, dağlarda qaldı,
Baş aça bilmədi naməlum sirrdən.

Əsgərim torpağa, daşa söykəndi,
Mətanət, igidlik onda var idi!
Güc alanda torpaq rişəsindən bil,
Ürəkdə deyilən dua yar idi!

* * *

Ömür yolumuzda nələri gördük,
Hər gecə, hər gündüz keçdik ormanı.
Sözümüz söz idi, Vətən naminə -
Sevgiylə torpağa AND içdi hamı!

Şəhidlərin qol gücünə el aldıq,
Qarlı dağlar sinəsində biz donduq.
Qar-boranda gücümüzü artırıb,
Qartal kimi yüksəkliyə biz qonduq.

Ay Ana, zillətə dözüb dağ aldıq,
Yağı əsgərini bizlər məhv etdik!
Hücum etdik zirvədəki düşmənə,
Ucalıqda al bayrağı yüksəltdik!

Ah, bu dünya bizə dərdi tanıtdı,
Namərdi gec qovdu, mərdi tanıtdı!
Fəqət, bizi tanıyanda gec oldu,
Namərd kəslər öz adını unutdu!

Biz onlara qəmdən, dərddən don biçdik,
Torpağın hər rəngi qana büründü.
Hər döngədən, hər dərədən biz keçdik,
Gözümüzə doğma Şuşa göründü!

Biz ölmədik, yaramız da sağaldı,
Sudan içdik, qüvvət gəldi, doymadıq.
Dərələri, yamacları almağa,
Düşmənləri bircə addım qoymadıq.

Dərə də, təpə də səngərim oldu,
Bir döyüş yolumu tapmışam daha!
Düşmənin qoluna mərmilər dəyib,
Onu sızıldatdı ölümdən baha!

Nifrətim süngütək ona sancıldı,
Hər gücüm yenilməz, baxışım ciddi!
Qarabağ mənim də cəsarət yolum,
Anam sevgilərlə bura göndərdi!

Biz Ana torpağı sevən olmuşuq,
Qüvvətli Ordumuz vuran-tutandır!
Ey şanlı əsgərim, Vətən igidi,
Sən "Dəmir Yumruq"la düşmən utandır!

Qəlbi qara yağı namərd yoldadır,
Biz Ana Vətənə sədaqətliyik!
Qarabağ dünyamız, güllü-çiçəkli -
Hər an yolumuzda biz diqqətliyik!

Mən sənə sözümü deməyə gəldim,
Bir şəhid ömrünün yolu bilinmir.
O qədər sevirəm səni dünyatək -
Kədərli ürəkdən sevgim silinmir.

Tale yollarında səni tapmadım,
Ah, Vətən eşqinə düşdüm yollara.
Mən səni qorudum hey addım-addım,
Düşdüm Ana torpaq, çovğuna, qara!

Qarlı yollarında kimləri gördüm,
Yandım, qaraldım mən, hər döngələrdə!
Atalar, Analar dözməmişdilər,
Onları yandıran əzablı dərdə.

Vəhşi düşmənlərə nifrət edənəm,
Yenilməz Ordumun əsgəriyəm mən.
Sinəmdə Vətənin bayraq nişanı,
"Yumruğ"um göylərdə şanlı bir Vətən!

Ötən günlərimi heç düşünmədim,
Məni gələn günlər çəkdi meydana!
Keçən günlərim də qaldı keçmişdə,
Bu tarixi hamı biləcək, Ana!

Şuşa döyüşündə uğurlu güclə,
Hər əsgər təpədən, qayadan keçib!
Mərd Ordum, qüvvətli zabit, əsgərim,
Şuşada ZƏFƏRə o gün AND içib!

Səninlə bu qəlbim, döyünür hər an,
Sən ölməz igidsən, torpağı sevən!
Sevgimi mən sənə necə bildirim?
Əbədi şahanə - sevimli Vətən!

Şəhidim, bil sənin adın əbədi,
Bu uca dağlara yazılıb, durur.
Bayrağım məhəbbət rəmzi sayılır -
Odur, ucalıqda əzəmət, qürur!

* * *

Bayrağa AND içib, zirvəyə qalxdım,
Vətən göylərinə AZADLIQ yazdım.
Gözümlə dağlardan Vətənə baxıb -
Vəhşinin yazdığı adları pozdum!

* * *

Ah, arzum çin olub, sevinirəm mən,
QƏLƏBƏ soraqlı xəbərlər gəlir.
Gecələr yatmasam, heç ziyanı yox,
Günəşi gülümsər səhərlər gəlir!

"İsa bulağı"nı görməmişəm mən,
Suyundan bir ovuc içib gələcəm!
Şuşa qalasının daşı sökülüb -
Daşı-daş üstünə qoya biləcəm!

Hər oğlum, hər qızım bunu görəcək,
Aşıb dağı-daşı bura gəlmişəm!
Onlar da bizlərə evlər tikəcək,
Bu əzəl tarixi çoxdan bilmişəm!

Ay Vətən, sinəmdə nəğmə çağlayır,
Necə gözəl olub, ömür-gün daha!
Məscidlər yenidən tikilir bu gün,
Dualar edirik Uca Allaha!

* * *

Ucalan minarə, oxunan azan,
Məni də sabaha çağırır, Ana!
Hər yazılan dastan, oxunan avaz,
Qəlbimə güc verir, hey yana-yana!

Hər döyüş meydanı məni səsləyir,
Düşməni qovuram mərdi-meydana!
Gözü yaşlı elim dərd əlindədir,
QƏLƏBƏ nəğməsi yazırıq, Ana!

Döyüşüm Vətənçün güc mənbəyidir,
Qolumun gücünə inanmışam mən.
Ürəkdə min fikir, cürət doğulur,
Torpağımı öpdüm sevindiyimdən!

Səslənir anamın duası, sözü,
Sənin gəlişinlə qisas alıram!
Bir dua sözündən bil ki, ay Ana,
Əsgərəm, gücümlə alovlanıram.

Hər güllə, düşmənə mənim lənətim,
Atanda səngərə köz düşür birdən.
Alışan alovdan güc alıram mən,
Sevincək olur bil, qayğılı Vətən!

Dərdimin üstünə dərd qoyub ağla,
Sinəm dərd əlindən düyün bağlayıb.
Keçməyib sinəmdən ağrı-acılar -
Sözümlə söhbətim sinə dağlayıb.

Keçmişəm babamın getdiyi yoldan,
İgidlər meydanı sulayıb keçir.
Namərd düşmənlərə qalib gəlmişəm,
Hər düşmən qarşımdan ulayıb qaçır.

*(Davamı var)*